EURASIAN JOURNAL OF CLINICAL SCIENCES

www.ejcs.org

# Süd vəzi xərçəngində bevacizumabla müalicə təcrübəmiz

***Hüseynov E.R.***

*Onkoloji Klinika, Azərbaycan Tibb Universiteti (ATU), Bakı, Azərbaycan*

**İŞİN MƏQSƏDİ**. Süd vəzi xərçəngində (SVX) vaskulyar endotelial böyümə faktoru A-nın (VEGF-A) inhibitoru olan Bevacizumabla kombinə olunmuş standart kimyəvi dərman müalicə (KDM+beva) və bevacizumabsız standart kimyəvi dərman müalicəsi (KDM) nəticələrinin qiymətləndirilməsi və müqayisəli təhlili.

***Açar sözlər:*** *Süd vəzi xərçəngi, kimyəvi dərman müalicə, residiv*

**Material və metodlar.** Tədqiqata 10 il ərzində yerli residivləşən və ya metastatik SVX diaqnozu ilə sadəcə KDM və KDM+beva sxemlərilə müalicə almış 45 xəstə daxil edilmişdir ki, xəstələrin hamısı ilkin etapda standart kimyəvi dərman müalicəsi almış (doxorubicin 60mq/m2+cyclophosphamide 600mq/m2 x 21 günlük), bir qrup xəstədə residiv (RSVX) (14), digər qrupda (31) metastaz (MSVX) fonunda yeni müalicə sxemi təyin edilmişdir. 28 xəstədə sadəcə KDM (paclitaxel 80 mq\m2 I, VIII, XV günlər x 28 günlük) seçilmiş, 17 xəstə isə ikinci xətt KDM+beva (bevacizumab 10 mq/kq–I gün x 15 günlük+ paclitaxel 80 mq\m2 I, VIII, XV günlər x 28 günlük) sxemilə müalicə almışdır. RSVX müşahidə edilmiş xəstələrin 64%-də sadəcə KDM, 36%-də isə KDM+beva, MSVX müşahidə edilmiş xəstələrin 61%-də sadəcə KDM, 39%-də isə KDM+beva sxemilə ilə müalicə aparılmışdır. KDM+beva ilə müalicə alan xəstələrin arasında RSVX hallarının sayı (5) və MSVX hallarının sayı (12) olmuşdur. Müalicənin effektivliyi radioloji müayinələr və onkomarker (CA15-3 və CEA) səviyyələrinin dinamik təhlilinə, müalicənin uzaq nəticələri isə proqressiyasız yaşama (PFS) və ümumi yaşama (OS) müddətininin hesablanmasına əsasən qiymətləndirilmişdir.

**Nəticələr.** Sadəcə KDM ilə müalicə almış və KDM+beva sxemi ilə müalicə almış SVX xəstələrin müalicə nəticələri ilə qarşılaşdırdıqda PFS müvafiq olaraq 5.2 ay və 10.5 ay, OS isə 21.8 ay və 24.1 ay olmuşdur. KDM+beva ilə müalicə alan xəstələrin arasında bevacizumabla müalicənin effektivliyi müvafiq olaraq 60% (RSVX) və 42% (MSVX) olmuşdur.

**Yekun.** Residivləşən və metastatik süd vəzi xərçəngində KDM+beva müalicə sxemilə kombinəolunmuş müalicə, sadəcə KDM sxemlərilə müalicə ilə müqayisədə daha effektivdir və RSVX hallarında bevacizumab daha effektiv nəticə göstərmişdir.